RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2017.05.03.000114



# GƏDƏBƏY AŞIQLARININ REGİONAL DASTAN İFA XÜSUSİYYƏTLƏRİ

Mübariz Əliyev[1]

**ÖZET**

Təqdim olunan məqalədə Gədəbəy aşıq incəsənəti öz əksini tapmışdır. Gədəbəy bölgəsində mövcud olan bu qədim incəsənət növü böyük rol oynamışdır. Araşdırılan məqalədə "Dastan" aşıq incəsənətinin əsas xüsusiyyəti kimi tədqiq edilmişdir. Müxtəlif həyat hadisələrinin şifahi şəkildə nəsildən-nəsilə ötürülməsi bir janr kimi dastan yaradıcılığına və onun inkişafına səbəb olmuşdur. Xalqın bədii təfəkkürünün məhsulu olan xalq yaradıcılığı və onun tədqiqi ədəbiyyatşünasların, folklorşünasların, musiqişünasların marağına səbəb olmaqla həmişə nəzər-diqqəti cəlb etmişdir. Son yüzillikdə Gədəbəy bölgəsində yaşayan şair aşıqlar tərəfindən müxtəlif xarakterli dastanlar və şeirlər, əhvalatlar, deyişmələr yaranmışdır. Bu baxımdan aşıq musiqisinin tədqiqi, qorunub saxlanılması ilə yanaşı, dastan ifaçılığında dərindən və köklü şəkildə öyrənilməsində böyük ehtiyac vardir.

**Anahtar Kelimeler:** incəsənət, aşıq, ənənə, hava, dastan, Gədəbəy.

# THE EPICS OF MINSTRELS (AŞIQ) IN GEDEBEY

**SUMMARY**

The presented article reflects the minstrel art of Gedebey. This ancient art form, existing in the Gedebey region, played an important role. In the article "Epics" is considered as the main feature of the art of minstrels. Oral transmission from generation to generation of various life events contributed to the formation of the art of epics and its development as a genre. Folk art and its research, which is a product of people's artistic thinking, has always attracted the theoretical attention of literary critics, folklorists, musicologists. In the last century, the minstrels of the Gedebey region created different epics and poems, stories and tongue twisters. In this regard, there is a great need both in the study of minstrel music, its preservation, and in its deep and thorough study in the performance of epic.

**Keywords**: Minstrel, tradition, hava, epics, Gedebey.

# ИСПОЛНИТЕЛЬСКИЕ ОСОБЕННОСТИ ДАСТАНА АШУГОВ ГЕДЕБЕЙСКОГО РЕГИОНА

**РЕЗЮМЕ**

В представленной статье находит свое отражение ашугское искусство Гедебея. Этот древний вид искусства, существующий в Гедебейском регионе, сыграл важную роль. В исследуемой статье «Дастан» рассматривается как главная

[1] Azərbaycan Milli Konservatoriyasının dosenti, eposta:habishka83@mail.ru

особенность искусства ашугов. Устная передача с поколения в поколение различных жизненных событий способствовала становлению творчеству дастана и его развитию как жанра. Народное творчество и его исследование, являющееся произведением художественного мышления людей, всегда привлекало теоретическое внимание литературоведов, фольклористов, музыковедов. В прошедшем столетии поэтами-ашугами Гедебейского региона были созданы разные дастаны и стихи, рассказы и скороговорки. В связи с этим существует большая потребность как в исследовании ашугской музыки, его сохранении, так и в глубоком и основательном его изучении в исполнении дастана.
**Ключевые слова**: искусство, ашуг, традиция, мелодия, дастан, Гедебей.

## GİRİŞ

Azərbaycan şifahi xalq ədəbiyyatının əsas qollarından birini xalq dastanları təşkil edir. Məzmun və formaca böyük olan dastanlar içərisində epik və lirik janrları özündə birləşdirən məhəbbət xalq dastanları aşıq ədəbiyyatının ən çox yayılmış janrıdır. Dastan şifahi xalq ədəbiyyatında, həcminə görə ən böyük epik əsərdir. Qədim tarixə, zəngin mədəniyyətə malik olan bu janr ayrı-ayrı dövrlərdə müxtəlif terminlərlə adlanmışdır: "Boy", "Oğuznamə", "Hekayə", "Qissə", "Əhvalat", "Nağıl" və s. Azərbaycan aşıq ədəbiyyatında vaxtilə şair- aşıqlar tərəfindən bir neçə xalq dastanı yaranmışdır. Bu dastanlar sujet quruluşuna və fərdi ifaçılıq xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.Məhz bu cəhətlərdən irəli gələn xüsusiyyətlər müxtəlif aşıq mühitlərinin yaranmasına səbəb olmuşdur. Bununla yanaşı müxtəlif həyat hadisələrinin şifahi şəkildə nəsildən-nəsilə ötürülməsi bir janr kimi dastan yaradıcılığına və onun inkişafına səbəb olmuşdur. İstərbizim xalqımız, istərsə də dünya xalqlarının əksəriyyətində dastanların yaranması və günümüzə qədər gəlib çatması həmin ölkələrdə yaşayan dastan biliciləri sayəsində olmuşdur. Müxtəlif tarixi proseslərdə xalqın həyat tərzinin, mübarizə əzminin, qəhrəmanlıq cəhətlərinin üzə çıxması ustad sənətkarların ifalarında əhəmiyyətli rol oynayır.

Xalqımızın əsrlər boyu qanına, canına, bir sözlə, bütün varlığına hopmuş aşıq sənəti özünəməxsus çalarlarının cəmiyyətə, xalqa təsir etmiş qüvvəsi və prinsiplərə malik olması ilə gününmüzə qədər öz əhəmiyyətini və aktuallığını qoruyub saxlamışdır. Xalqın bədii təfəkkürünün məhsulu olan xalq yaradıcılığı və onun tədqiqi ədəbiyyatşünasların, folklorşünasların, musiqişünasların marağına səbəb olmaqla həmişə nəzər-diqqəti cəlb etmişdir. Əsrlərin süzgəcindən keçən poetik-musiqili yaradıcılıq növü, bəlkə də, sinkretikliyin ən gözəl və mükəmməl növüdür. Məlumdur ki, burada poetik mətn, musiqi, rəqs, aktyorluq istedadı, poetik yaradıcılıq qabiliyyəti, ifaçılıq məharəti, bəstəkarlıq kimi əslində bir-birindən fərqlənən bədii fəaliyyət bir arada özlərini ifadə etməkdədirlər. Aşıq yaradıcılığının bir çox poetik problemlərinin, xüsusilə də aşıq poeziyasının və dastan yaradıcılığının araşdırılmasında folklorşünas alimlərimiz bir çox işlər görmüşlər. Bu baxımdan Həmid Araslı, Azad Nəbiyev, Məhəmmədhüseyin Təhmasib, Mirəli Seyidov, Mürsəl Həkimov, Sədnik Paşayev, Qara Namazov, Hüseyn İsmayılov, Məhərrəm Qasımlı, Elxan Məmmədli və başqalarının misilsiz xidmətlərini xüsusi olaraq qeyd etmək yerinə düşərdi.

Q.Paşayev qeyd edir ki, "Dahi bəstəkarımız Ü.Hacıbəyli demişdir: Aşıq sənəti möcüzəvi bir aləmdir. Burada bəstəkarın, şairin, yazıçının, aktyorun, rəqqasın da

götürəcəyi qədər pay vardır"[5, s. 216]. Onu da qeyd etmək yerinə düşər ki, vaxtilə Üzeyir Hacıbəyov "Əsli və Kərəm", "Koroğlu" dastanlarını operamızda tədbiq etməklə aşıq sənətinin qorunmasında və yaşamasında böyük rol oynamışdır.

Bu baxımdan aşıq musiqisinin tədqiqi, qorunub saxlanılması ilə yanaşı, dastan ifaçılığında dərindən və köklü şəkildə öyrənilməsində böyük ehtiyac vardir. Keçmis zamanlarda aşıqlarımız yazıb oxumagı bilməsələr də bu zəngin aşıq dastan xəzinəsini yaddaşlarında, öz səslərində, sazlarında yaşatmaqla bərabər canlı ifaları ile milyonlarin rəğbətini qazanmışlar. Bu gün aşıq-dastan ifaçılıq ənənələrini özündə saxlayıb qoruyan, inkişaf etdirən muhitlərdən biri də Gədəbəy aşıq mühitidir. Həmin mühitin ustad aşıqlarından "Miskinli Vəli", "Şair Cavad", "Aşıq Oruc", "Aşıq İsfəndiyar", "Aşıq Sarı", "Aşıq Yusif", "Aşıq Kərəm", "Aşıq İslam" və s. adları çəkilən aşıqların hər biri dastan yaradıcılıgında aşıq sənətini zənginləşdirməklə fərdi üslub xüsusiyyətlərinə malik olmaqla xalq arasında böyük hörmət qazanmışlar.

Bu gün bu zəngin xəzinəni öz sənət dünyasında yaşadan ustad aşıq nümayəndələrindən biri olan qocaman el aşığı İslam Əkbərovdur. Aşıq İslam Əkbərov 1934-cü ildə Gədəbəy mahalının Miskinli obasında dünyaya göz açıb. Gənc yaşlarından öz qohumu Şair Cavadın şagirdi olmaqla bu sənətin sirlərini dərindən öyrənmişdir. Ustadı Şair Cavad (1898-1969) öz dövrünün savadlı aşıqlarından biri olmuş, həm də ərəb-fars dilinin mukəmməl bilicilərindəndir.

Son yüzillikdə Gədəbəy bölgəsində yaşayan şair aşıqlar tərəfindən müxtəlif xarakterli dastanlar və şeirlər, əhvalatlar, deyişmələr yaranmışdır. 2003-ci ildə Aşəq İslam yaradıcılığına məxsus olan dastanlar öz dilindən çalıb-oxumaqla kino-lentə ve yazıya alınmışdır. Beləliklə, şair Cavadın yaratdığı dastanlar: "Birinci qövlü bəla", "İkinci qövlü bəla","Qul Qəmbərin nağılı", "İsgəndərin Bərdə səfəri","Hind şahının oğlu Novruz", "Cavad və Xurda", "Tamara hekayəsi", Miskinli Vəlinin "Canbaxça dastanı", Aşıq İsfəndiyarın yaratdığı "Şınıx qeyrəti"adlı qəhrəmanlıq dastanı Azərbaycan aşıq ədəbiyyatına yeni dastanlar şəklində bəxş olunmuşdur. Bu çeşidli incilər fərdi ifaçılıq üslub xüsusiyyətlərinə görə diqqəti cəlb edir.Onu da qeyd etmək olar ki, çox zəngin ənənələrə söykənməklə dastan nümunələri və bu günə kimi bənzəri olmayan dastan inciləridir. Görkəmli folklorşünas prof. M.Qasımlı qeyd edir ki, belə dastanlar hələ tədqiq olunmayıb.

Azəbaycan xalq professional musiqisi öz tarixi inkişafı baxımından əhəmiyyətli yol keçmiş, xalqın qan yaddaşında əsrlər boyu silinməz izlər buraxmışdır. Bu baxımdan xalqın folklorunda, adət-ənənələrində milli-mənəvi dəyərlərin yaranması və formalaşması tarixi təkamül prinsipinə uyğun olaraq dünyəvilik kəsb etmişdir. Folklor nümunələrimiz arasında yaranan mərasim, mövsum nəğmələri ilə yanaşı, müxtəlif xalq rəqslərinin və s. o cümlədən, aşıq sənətində də rolu əhəmiyyətli və dəyərli olmuşdur.

Folklorşünas alim M.Həkimov yazır ki, "1985-ci ildə Gədəbəy mahalının Dəyəqarabulaq kəndinin sakini 107 yaşlı Babayev Böyükkişi Balakişi oğlundan "Mehtər Alı" dastanını yazıya köçürmüşdür. "Koroğlu" dastanının şəxsən tərəfimizdən toplanan qollarından biri də "Mehtər Alı" dastanıdır." [2, s. 319]. Maraqlı haldır ki,bu dastana başqa aşıq mühitlərində rast gəlmək olmur.

Şair Cavadla Miskinli Vəlinin bədahətən deyişməsi, şair Cavadla Şəmkirli Aşıq Teymurun deyişməsi, şair Cavadla kəmsavad Məhəmmədin deyişməsi, saysız hesabsız

poetik nümunələr Gədəbəy aşıqlarının və xalqın yaddaşında bugün də yaşamaqdadır. Bu da bu bölgədə zəngin ifaçılıq mədəniyyətinin olması ilə bağlıdır. “Vaxtdan uca” adlı kitabın müəllifi R.Hüseynov yazır ki, “vaxtilə Gədəbəy bölgəsində olmuşgörkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasib hələ sağlığında şair Miskinli Vəlidən çoxlu sayda (on min beyt) poetik nümunələr və dastanlar yazıya almışdır”[3, s. 15].

Bu yaradıcılıq baxımından biz Azərbaycan aşıq sənətinin müxtəlif mühitlərinin spesifik xüsusiyyətlərini öyrənərək buradakı aşıq dastanlarının çoxcəhətliyinin şahidi oluruq.

Məhz bu çoxcəhətliyin müxtəlif sahələrinin araşdırılması zamanı Gədəbəy aşıq mühitinin dastanları çoxşaxəliliyi diqqət çəkir. Burada aşıq mühitlərinin öyrənilməsi bir çox yeniliklərin, o cümlədən, müxtəlif aşıq məktəblərində aşkarlanan dastanların tədqiqatı məsələlərini meydana gətirir.

Şeirin əsasında oxunan “Gödək donu” havası oynaq xarakterə malikdir. Gədəbəy aşıqları ilk dəfə bu havanı xor şəklində oxuyublar. Hal-hazırda aşıq mühitlərində bu havadan geniş istifadə olunur.

Gödək donu




*Nota 1:Aşıq havası Gödək donu.*

Növbəti aşıq havası “Gödək donu” adlanır. Bu musiqi nömrəsi də $\frac{6}{8}$ ölçüsündə olan, klassik aşıq havalarından biridir. Həzin xarakterli musiqi parçası 14 xanəli instrumental giriş ilə başlayır. Girişdə melodiya bir qayda olaraq hərəkət istiqamətinin dəyişilməsini, yəni yüksələn və enən hərəkətin növbələşməsi hallarını burada görmürük.

Melodik xətt burada əsasən fa notu ətrafında gəzişir. Müşayiətlə ifa olunan harmanik faktura,melodiya ilə möhkəm bağlı olub, onu zənginləşdirir. Deməli,təkrarlanan harmonik fiqurasiya özü,aydın ifadə vasitəsi olmaqla bərabər eyni zamanda əks ifadə vasitəsinin – melodiyanı gücləndirir. Təqdim olunan aşıq havası baş kökdə olaraq segah məqamının pillələrinə istinad edir. Bu aşıq havası 8 hecalı hecalı gəraylı şeir formasıdır.

Qədim zamanlarda aşıqların özünəməxsus qayda-qanunları olmuşdur. Bunlardan ustad aşıqlar dastan söyləyərkən musiqisiz sözlə-söhbətlə müqəddimə ilə ustadnamə deməklə məclisi açmışlar. Giriş hissədə əvvəlcə ustadlar ustadnamələri sözlə deyir, daha sonra isə özlərinin və el şairlərinin yaratdıqları sözləri sazınmüşayiətilə baş kökdə oxuyub ifa edirlər. “Ustadnamə” Azərbaycan aşıqlarının dastan ifaçılığında məclisin açarı kimi qəbul olunmuşdur. Aşıqlar “ustadnaməni” bitirdikdən sonra öz ustadlarını xatırlayıb ölənlərə rəhmət, qalanlara can sağlığı, xoşbəxtlik arzulayırlar. Dastanın sözlərinixüsusi bir ahəng altında deklamasiya tərzində söyləyirlər. Lakin yeri gəldikdə aşıq söylədiyi mətnin müəyyən hissələrinə tam açıq formada məlumatlar verir.Beləliklə, Gədəbəy aşıq mühitinin dastanlarının sinxronik quruluşu bu şəkildədir:

*Tablo 1: Gədəbəy aşıq mühitinin dastanlarının sinxronik quruluşu.*

| | | |
|---|---|---|
| 1 | **Müqəddimə** | Musiqisiz sözlə məclisin açılışı |
| 2 | **Giriş** | Musiqi və sözlə ifa (**“baş kök” pərdə**) |
| 3 | **Keçid** | Kökün dəyişilməsi ilə musiqi və söz ifası (**“orta kök”pərdə**) |
| 4 | **Ortalıq** | Kökün ikinci dəfə dəyişilməsi, musiqi və sözlə ifa (**“şah kök”pərdə**) |
| 5 | **Sonluq** | Əvvəlki kökə qayıdış, musiqi və sözlə ifa (**“baş kök”pərdə**) |

Musiqişünas Azad Ozan qeyd edirki, “saz hələ lap qədimlərdən doqquz pərdədən ibarət olub və tərtibat indi də qorunub saxlanılır. Saz bu pərdələr əsasında köklənir. Köklər, əsasən, “Baş divani”, “Təcnis”, “Şah” pərdələr yuxarıda 1-ci, 2-ci ve 4-cü pərdələrə tənzimlənir.” {4, s.8}Lakin müasir dövr hər bir alətdə inkişaf olduğu kimi saz alətində də pərdələrin sayı və kök quruluşu inkişaf etmişdir. Dastan ifaçılığında Gedebey aşıqları bu kökdən istifadə edirlər.

Maraqlı cəhətlərdən biri odur ki, bu bölgədə dastan ifaçıllğında ustadlardan gələn ənənəyə görə Baş kökdə Baş divani, Orta kökdə Təcnis, Şah kökdə isə Qaraçı havaları ifa olunur. Bunlardan sonra gələn havalar sərbəstdir. Bu da qədim ənənələrdən əmələ gələn prinsiplərə əsaslanır.{1.s10} Lakin başqa aşıq muhitlərində- Borçalıda, Şirvanda, Təbrizdə və Urmiyada dastanın digər variant ifa xüsusiyyətləri özünü göstərməklə, Gədəbəy aşıq mühiti arasında fərqli cəhətləri üze çıxarır.

*Tablo 2: Gedebey aşıqları dastan ifaçılığında kökler.*

| Saz alətində mövcud olan köklər | Məqam | I qrup simlər | II qrup simlər | III qrup simlər |
|---|---|---|---|---|
| 1.Baş kök (I kök) | segah | do | Re | si♭ |
| 2.Orta kök (II kök) | rast-mahur | do | mi♭ | si♭ |
| 3.Şah kök (III kök) | rast | do | Fa | si♭ |
| 4.Divani kök (IV kök) | rast | do | I-sol<br>II-do | si♭ |
| 5.Çoban bayatı kökü (V kök) | rast | do | lya♭ | si♭ |
| 6. Açıq kök və ya bayramı kökü (VI kök) | şur | do | Do | si♭ |
| 7. Sadə kök(VII kök) | şur | do | si♭ | si♭ |

Bu bölgədə dastan məclisi mütləq balabanın iştirakı ilə olur, həm də iki aşığın qarşı-qarşıya çalib-oxuması, balaban müşayiəti (üçlük) ilə nümayiş etdirirlər. Bu da qədimdən gələn uzun bir tarixi yol keçmiş, sınaqlardan çıxaraq milyonlarla insanın qəlbinə, ruhuna hakim kəsilmişdir.

**SONUÇ**

Şifahi xalq dastanı bir tərbiyə məktəbidir ki, bu məktəbi yaradan sənətkarların fitri istedadı, eyni zamanda davraniş üsulları, vokal instrumental ifaçılığı və şirin söhbət məharət tələb edir. Gədəbəy aşıq mühitində ənənəvi dastançılıq ifa xüsusiyyətləri digər aşıq mühitləri arasında oxşar və fərqli cəhətləri diqqət çəkir.

Ustad aşıqlar dastan söyləyərkən aşığa məxsus metodlardan, intonasiyalardan fitri istedad baxımından musiqi vasitəsilə nümayiş etdirirlər.

Min illər boyu xalqın qan yaddaşından gələn dastanlar ailə-məişət, vətənpərvərlik, qəhrəmanlıq, hətta yüksək islami dəyərlərin aşılmasında aşıq sənətinin əvəzsiz xidmətləri olmuşdur.

Xalq təfəkkürünün məhsulu olan şifahi ənənəli dastanlar ustad aşıqların fitri istedadları sayesində xalq arasında inkişaf etməklə bu günki aşıqlar qarşısında mürəkkəb tələblər qoymuşdur.

**KAYNAKLAR**

1. Kərimi S., Quliyev A., Əliyev M. Saz məktəbi B..., 2007, “Qarabağ nəşriyyatı”, s.229

2. Həkimov M.İ. Aşıq sənətinin poetikası. B..., Səda, 2004,s. 609

3. Hüseynov R.B.Vaxtdan uca. B...,İşıq, 1987, s. 363

4. Kərimi A.K. Dede Qorqud elmi-ədəbi toplu. “Səda” nəşriyyatı. Bakı 2005.

5. Paşayev Q.M. İraq-türkmən folkloru. B..., Yazıçı, 1992,s. 216